**"III Milli Mühasiblər Forumu"**
(Bakı şəhəri, 12 iyun 2019-cu il)

**Ümumi məlumat:**

AR Vergilər Nazirliyinin, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, Azərbaycan Respublikası Auditorlar Palatasının, İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyinin, İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin, Gənc Mühasiblər Birliyinin, Azərbaycan Risk Peşəkarları Assosiasiyasının (ARPA), Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının (APFM) birgə təşkilatçılığı ilə 12 iyun 2019-cu ildə Bakı şəhərində III Milli Mühasiblər Forumu keçiriləcəkdir.

Tədbiri keçirməkdə məqsəd Azərbaycanda Mühasibat uçotunun inkişafı, Mühasibat uçotu və Vergi qanunvericiliyi sahəsində baş verən dəyişikliklər ətrafında müzakirələrin təşkili, bu sferada islahatların dərinləşməsinə yönəlmiş təkliflərin toplanması və beynəlxalq təcrübə üzrə məlumatlılığın artırılmasıdır.

## FORUMUN BAŞLICA BÖLMƏLƏRİ:

- **Forum**
- **Sosial tədbirlər**
- **Mükafatlandırma mərasimi**
- **Sərgi**

## FORUMDA İŞTİRAKIN FORMALARI:

Forumda 6 şəkildə iştirak mümkün olacaqdır:

- **Xüsusi dəvətli qonaq;**
- **Məruzəçi – təqdimatla çıxış;**
- **İştirakçı;**
- **Sərgi təqdimatı;**
- **Könüllü;**

## I. XÜSUSİ DƏVƏTLİ QONAQ

**Forumun Təşkilat Komitəsinin qərarı əsasında xarici ölkələrdən və respublika daxilindən dəvət olunur.**

## II. FORUMDA MƏRUZƏ İLƏ ÇIXIŞ

**Forumda aşağıdakı mövzular üzrə bölmələr təşkil olunacaq:**

1. **Azərbaycanda Mühasibat Uçotu sahəsində davamlı təhsilin təşkili məsələləri;**
2. **Azərbaycan Respublikası Vergi Məcəlləsi və Sosial Sığorta haqqında Qanuna edilmiş düzəlişlərin Mühasibat Uçotunun tətbiqinə təsirləri;**
3. **Mühasibat Uçotu sahəsində müasir çağırışlar: Milli yanaşmalar və Beynəlxalq standartlar paradiqması;**
4. **İrəliyə addım: Rəqəmsal Mühasibat Uçotu;**
5. **Azərbaycan reallığında Auditin təşkili problemləri;**

**Forumda məruzəçilərin (spikerlərin) seçilməsi qaydası:**

***Məruzəçilər Milli Mühasiblər Forumunun Təşkilat Komitəsinin qərarı əsasında seçiləcək.***

## III FORUMDA SƏRGİ TƏQDİMATI

**Forumun təşkilat komitəsi mühasibat uçotu sahəsində xidmət göstərən bütün şirkətləri tədbirə göstərdiyi dəstəyə görə öz məhsullarını iştirakçılara nümayiş etmək üçün sərgiyə dəvət edir.**

**Qeyd:** ***Sərgilənəcək məhsulların Reklam məmulatlarının tədbir yerinə gətirilməsi, quraşdırılması, montajı və demontajı şirkətlərin özləri tərəfindən həyata keçirilir.***

**Sərgi üçün nəzərdə tutulan məhsulları ilə bağlı tələblər:**

1. Məhsulun adı:
2. Məhsulun növü (kitab, jurnal, proqram təminatı və s.)
3. Sərgi olunacaq məmulatların ayrılıqda siyahı sayı:
4. Sərgini keçirəcək şəxs haqqında məlumat (bir şirkəti bir nəfər təmsil edə bilər):

**Təşkilat Komitəsi tərəfindən sərgi keçirənə təkliflər:**

Sərgi masası – 1 ədəd;

Sərgi sahəsi – 4 $m^2$;

## FORUMDA SERTİFİKATLARIN VERİLMƏSİ

Forumda iştirakçı, məruzəçi, təşkilatçı və moderator üzrə SERTİFİKAT-lar veriləcəkdir.

**Forumla bağlı başlıca tarixlər:**
***Forumda Sərgi üçün müraciətlərin qəbulunun başlanma tarixi: 25 Yanvar 2019***
***Forumda Sərgi üçün müraciətin son tarixi: 21 May 2019***

**Əlaqələndirici şəxslər:** Nəzir Xalid, İsgəndər Quluzadə

**Əlaqə məlumatları: (+994 12) 432-57-78,**
**Mob: (+994 70) 932-42-62, (+994 55) 932-48-96, (+994 55) 286-52-81;**
**E-mail: millimuhasiblerforumu@gmail.com**